# ABŞ İlham Əliyevin sülh gündəliyini dəstəkləyir

## Ağ Ev Azərbaycanla Ermənistan arasında aparılan danışıqlara davamlı dəstək verəcəyini bəyan edir

**"Ermənistanın atdığı təxribatçı addımlar sülh prosesinə maneçilik törədir. Bu ölkənin silahlı qüvvələrinin Azərbaycanın suveren ərazisində qanunsuz olaraq qalmaqda davam etməsi bölgədə hərbi gərginlik mənbəyidir".**

İyulun 29-da ABŞ Dövlət katibi Antoni Blinkenlə telefon danışığı zamanı Prezident İlham Əliyev bir daha regiondakı reallığı, Ermənistanın sülh danışıqları prosesində arzuolunmayan vəziyyət yaratmasını, məğlub ölkənin siyasi şantajla məşğul olmasını Ağ Ev rəsmisinin diqqətinə çatdırıb.

Tərəflər arasında sülh danışıqları prosesində irəliləyiş yarandığı zaman Ermənistanın siyasi rəhbərliyi yeni "oyunlar" oynamağa başlayır. Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu, İlham Əliyevin sülh müqaviləsi ilə bağlı təkliflərini qəbul etdiyini sözdə bəyan edən N.Paşinyan qeyri-müəyyən əməlləri ilə prosesi boş yerə uzatmağa



çalışır. Ermənistan gah Laçın sərhəd-buraxılış məntəqəsində təxribat törədir, gah Azərbaycanın bölgədə "humanitar fəlakət" yaratdığını iddia edir, gah tarixin arxivinə göndərilmiş "status" məsələsini, gah da 28 il münaqişənin həllində heç bir rol oynamayan Minsk qrupunun yenidən bərpasını gündəmə gətirməklə sülh danışıqlarına əngəl yaradır.

3

2023.- 2 avqust.- S. 1; 3.

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# ABŞ İlham Əliyevin sülh gündəliyini dəstəkləyir

## Ağ Ev Azərbaycanla Ermənistan arasında aparılan danışıqlara davamlı dəstək verəcəyini bəyan edir

*Əvvəli 1-ci səh.*

Antoni Blinkenlə danışığı zamanı İlham Əliyev bunları Ağ Ev rəsmisinə açıq şəkildə bildirdi. Qalib Ali Baş Komandan Ermənistan tərəfinin Laçın dövlət sərhədinin keçid məntəqəsində hərbi təxribat törətməsini, sərhədçilərimizi atəşə tutmasını, qaçaqmalçılığa cəhd edilməsini, icazəsiz yük avtomobillərini Azərbaycana göndərməsini diqqətə çatdırdı.

İlham Əliyev bildirib ki, Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün Ağdam-Xankəndi yolundan istifadə etməklə bağlı təklif irəli sürməsinə və bunun Avropa İttifaqı, Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən dəstəklənməsinə baxmayaraq, Ermənistan bu təklifə qarşı da çıxır. Prezident erməni tərəfinin "Humanitar vəziyyət" və "blokada" ilə bağlı iddialarını siyasi manipulyasiya adlandırıb.

Hər zaman qətiyyətli siyasəti ilə xalqının milli maraqlarını ifadə edən Azərbaycan Prezidenti ABŞ Dövlət katibinin nəzərinə çatdırıb ki, Ermənistanın davamlı şəkildə pozucu fəaliyyət göstərərək, sülh danışıqlarına, eləcə də Azərbaycan və yerli erməni sakinlər arasında təmas və dialoqun inkişafına maneçilik törətməyə çalışması qəbuledilməzdir.

Prezident bir daha Azərbaycanın dəyişməz və humanist mövqeyini açıqlayıb. Bu mövqe ondan ibarətdir ki, Azərbaycan erməni sakinlərin reinteqrasiyası istiqamətində qərarlıdır. Bu məqsədlə hətta Xocalıda birinci görüş də keçirilib. Azərbaycan ikinci görüş üçün öz təklifini irəli sürüb. Hələ qarşı tərəfdən bununla bağlı heç bir qərar verilməyib.

Antoni Blinken isə ABŞ-nin Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi üzrə müzakirələrə davamlı dəstəyini ifadə edərək, Laçın dövlət sərhədindən buraxılış məntəqəsi və digər alternativ yollar vasitəsilə keçidin önəminə, danışıqlardakı müsbət dinamikanın saxlanmasının əhəmiyyətinə toxunub.

Əlbəttə ki, İlham Əliyevin müəyyənləşdirdiyi sülh gündəliyi regionda ilk növbədə təhlükəsizliyin qarantıdır. Bunu beynəlxalq təşkilatlar, böyük dövlətlər və barış sazişinin imzalanması üçün çalışan vasitəçilər də etiraf edirlər.

Xüsusən də bu prosesə ABŞ tərəfindən davamlı dəstək nümayiş olunur. Bunu Antoni Blinkenin bu ilin 7 ayında İlham Əliyevə etdiyi davamlı telefon zəngləri zamanı aparılan danışıqlarda da görmək mümkündür.

Onu da qeyd edək ki, bu il Antoni Blinkenlə İlham Əliyev arasında yanvar ayının 23-də, mart ayının 21-də, aprel ayının 30-da və iyul ayının 12-29-da telefon danışıqları olub. Aparılan müzakirələrdə Ağ Ev rəsmisi birmənalı şəkildə ABŞ-nin dəyişməyən mövqeyini bəyan edib, İlham Əliyevin sülh üçün irəli sürdüyü təklifləri dəstəklədiyini söyləyib. Telefon danışıqları zamanı dövlət katibi Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üçün tarixi imkanın yarandığını vurğulayıb.

Ən mühüm məqam isə odur ki, ABŞ İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni reallıq, sülhün və təhlükəsizliyin təminatı və Ermənistanla sülh sazişinin bağlanması prosesində İlham Əliyevin atdığı addımları, irəli sürdüyü qlobal təşəbbüsləri birmənalı dəstəkləyir. Bunu ABŞ Prezidenti Co Baydenin İlham Əliyevə 28 May Müstəqillik Günü münasibətilə ünvanladığı məktubundakı fikirləri də təsdiq edir. ABŞ Prezidenti qeyd edir ki, indi Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün mühüm imkana bəslənən ümid zamanıdır. Rəsmi Vaşinqton bütün Qafqaz və Trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə kömək etməyə hazırdır.

Göründüyü kimi, dünyanın super dövləti olan ABŞ da İlham Əliyevin postmüharibə dövründə yürütdüyü siyasətə öz dəstəyini nümayiş etdirir. Qalib Ali Baş Komandan kimi bölgədə sülhün bərqərar olunmasını, yeni nəqliyyat-tranzit qovşağının və həmçinin yeni əməkdaşlıq platformalarının yaradılmasının təşəbbüskarı olan İlham Əliyevin təklifləri Avropa İttifaqı, BMT ilə yanaşı, ABŞ tərəfindən də təqdir edilir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*